# Tarix yaradan şəxsiyyət

**Müxtəlif xalqların tarixində tərəqqi və tənəzzül dövrləri olub. Yüksəliş dövrləri də millətin, xalqın uzaqgörən liderləri ilə bağlıdır. Tənəzzül dövründə ölüm-dirim savaşı, olum və ya ölüm məsələsinin olduğu vaxtlarda xalqlar öz liderlərini axtarır, böyük şəxsiyyətlərinin dühasına arxalanırlar.**

Tarix o zaman obyektiv olur ki, o dövrdəki proseslərə həm də böyük tarixi şəxsiyyətlər faktoru prizmasından baxasan. Biz Azərbaycan tarixinə 40 ildən çoxdur ki, Heydər Əliyev şəxsiyyəti prizmasından baxırıq. Bu həm də onunla əlaqədardır ki, 1969-cu ildən başlayaraq bu böyük şəxsiyyət Azərbaycana rəhbərlik edib, respublikanın suverenlik qazanması prosesinə qədər keçdiyi tarixi bir mərhələ də məhz onun adı ilə bağlıdır və müstəqillik illərində də Azərbaycan dövlətçiliyinin qurucusu və xilaskarı kimi tanınıb.

Qardaş Türkiyə ötən yüzilliyin 20-ci illərində belə seçim qarşısında qalmışdı. Onda xalq böyük Mustafa Kamal Atatürkün dühasına üz tutdu. Millət atası xalqın etimadına, inamına arxalanaraq Türkiyəni dağılmaqdan, məhv olmaqdan xilas etdi... Böyük şəxsiyyət Heydər Əliyev də Azərbaycanın ən çətin və mürəkkəb dövrlərində hakimiyyətə gələrək dövlətçiliyi xilas, millətin gələcəyini təmin etmişdir.

Təsadüfi deyil ki, 1990-cı ilin Qanlı 20 Yanvarında həyatını risk qarşısında qoyaraq ailəsi ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyev Bakı şəhərinə təcavüz olunması barədə qərar qəbul edən səlahiyyətli şəxslərin hərəkətlərini bağışlanılmaz siyasi məhv adlandırmış, faciənin törədilməsində günahkar olan respublika və imperiya rəhbərlərini açıq ittiham etmişdir. Heydər Əliyev mətbuat konfransında 20 Yanvar faciəsinə ilk siyasi qiymət vermiş, imperiyanın dünyaya meydan oxuduğu bir vaxtda onu Azərbaycan xalqına qarşı genosid siyasəti yeritməkdə təsdiqləndirmiş, “Qırğına yol verənlərin hamısı layiq olduğu cəzanı almalıdır”, — deyə bildirmişdir. Heydər Əliyev üzləşdiyi bütün təzyiqlərə, təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham etmişdir.

Azərbaycan 1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyini qazansa da, hakimiyyətdə olan naşı qüvvələrin yeritdiyi yarıtmaz siyasət üzündən respublikanın hər bir vətəndaşının mənafeyinin uca tutulduğu hüquqi, demokratik və qüdrətli dövlətin yaradılması sadəcə xoş ideya olaraq qalırdı. 1991-1993-cü illərdə Azərbaycanda iqtisadi tənəzzül güclənmiş, siyasi böhran dərinləşmiş, cəbhə bölgəsində hərbi uğursuzluqlar artmış, ölkə vətəndaş qarşıdurması, parçalanma həddinə çatmış, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində acınacaqlı vəziyyət yaranmışdı. 1993-cü ildə xalq onu bu vəziyyətdən çıxaracaq yeganə lideri ümummilli liderimiz Heydər Əliyevin şəxsində görürdü.

Tarix və zaman Heydər Əliyev kimi dühanın çiyninə yeni missiya qoymuşdu. Bu missiyanın məqsədi xalqın xilası və tərəqqisinə nail olmaq idi. Yenidən hakimiyyətə qayıdışın mahiyyəti xalqı xaosdan, parçalanmaq təhlükəsindən xilas etmək idi. O, bu böyük qayıdışla Azərbaycanda tarixi missiyanı uğurla yerinə yetirdi.

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır. 1995-ci ildə qəbul olunmuş ilk Milli Konstitusiya Azərbaycan Respublikasını demokratik, hüquqi, dünyəvi dövlət kimi elan edib, insan hüquqlarının qorunmasını öz siyasətinin prioriteti kimi qəbul etdi.

Heydər Əliyev bütün varlığı ilə sevdiyi Azərbaycanın suverenliyini möhkəmləndirmək, inkişaf etmiş, sivil dünya dövlətləri cərgəsinə çıxarmaq, arzusunda olduğu yeni, əsl müstəqil Azərbaycanın reallaşması naminə var gücü ilə çalışırdı. Yorulmadan dünyanın böyük dövlətlərinin başçıları ilə saysız-hesabsız görüşlər keçirir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırdı. Bu səfərlər zamanı dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımızın vəziyyəti ilə maraqlanır, onların azərbaycançılıq ideyası ətrafında birləşməsi üçün böyük səy göstərir, bütün ölkələrdə onların mənəvi və mədəni həmrəyliyinin yaradılmasına, Azərbaycan diasporunun formalaşmasına böyük önəm verirdi.

Ulu öndərin ümumbəşəri dəyərlərə söykənən ideyaları yüz illərlə yaşayacaq və qalib gələcəkdir. O, bütün mənalı ömrünü yalnız Azərbaycanın istiqlalı, müstəqilliyinin əbədiliyi, xalqının firavan həyatının bərqərar olmasına sərf etmişdir. Bu böyük şəxsiyyət Azərbaycan xalqının təhlükəsiz yaşaması, azadlığını qazanması uğrunda gərgin mübarizə aparmışdır. “Haqqı tapdanan insanların arxasında güclü dövlət, ədalət durmalıdır” prinsipləri Heydər Əliyevin həyat devizi, amalı olmuşdur.

Ümummilli liderimiz müstəqil Azərbaycan dövlətini qurdu, inkişaf yoluna çıxardı. möhkəmləndirdi, xarici düşmənlərdən və daxildəki xəyanətkarlardan qorudu. O, Azərbaycan dövlətinə, bu məmləkətə, bu xalqa yönələn bütün zərbələrə qarşı öz polad sinəsini sipər etdi. Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı siyasi-iqtisadi böhran içində boğulan, tənəzzüldə olan Azərbaycanı böyük fəlakətlərdən xilas etdi.

Məhz ümummilli liderimizin gərgin səyləri və yenilməz iradəsi nəticəsində Azərbaycan bu gün dünya birliyi tərəfindən tükənməz təbii sərvətləri, iqtisadi imkanları ilə yanaşı, mədəni, elmi, intellektual, yaradıcı potensiala malik ölkə kimi qəbul olunur. İndi dünyanın qüdrətli dövlətləri regionla bağlı bir çox məsələlərin həllində yerləşdiyi bölgədə söz sahibi olan ölkəmizin dəstəyinə arxalanır, onunla etibarlı tərəfdaş kimi hesablaşırlar. Azərbaycan bu gün həm regional, həm də beynəlxalq təhlükəsizliyin qorunmasında fəal iştirak edir.

Ulu öndərimiz Heydər Əliyev təməlini yaratdığı möhkəm iqtisadi-siyasi bazaya əsaslanaraq inamla deyirdi: “İnanıram ki, Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır”.

Təbiətin bəxş etdiyi nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı. Sarsılmaz məntiq üzərində qurulan, böyük təsir gücünə malik olan məruzə və nitqlər Heydər Əliyevin fəlsəfi və siyasi dünyagörüşündəki dərinliyin və genişliyin açıq ifadəsi idi.

Sevindirici haldır ki, onun müəyyən etdiyi strateji inkişaf kursu bu gün inamla davam edir. Bütün ömrünü, həyatını xalqına həsr etmiş bu müdrik insanın ideyaları indi onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dövrün çağırışlarına uğurla cavab verərək reallaşır.

**Əliyar ƏSGƏROV,**
**“Bank olmayan kredit təşkilatı İDK” MMC-nin baş direktoru.**